**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AMƏNƏ ELDAR qızı KƏRBALAYEVA**

# CƏLALİLƏR HƏRƏKATI VƏ AZƏRBAYCAN
# ( XVI ƏSRİN SONU – XVII ƏSRİN ƏVVƏLLƏRİ)

**İxtisas: 5503.02-Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**

Tarix üzrə elmlər doktoru, professor **Ş.F. Fərzəliyev**

**Rəsmi opponentlər:**

Tarix üzrə elmlər doktoru, professor **Z.H.Bayramov**
Tarix üzrə fəlsəfə doktoru, dosent **T.R.Cəfiyev**

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Azərbaycan tarixi” kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 -“Beynəlxalq münasibətlər tarixi” və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının “___” _________2017-ci il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan**: AZ-1143. Bakı şəhəri, H.Cavid -115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivində tanış olmaq mümkündür.

Avtoreferat «____» __________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə fəlsəfə doktoru** **C.Ə.Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Azərbaycanın orta əsrlər dövrünün ictimai-iqtisadi və siyasi tarixini dərindən öyrənmək tarix elminin qarşısında duran vacib vəzifələrdən biri kimi öz aktuallığını hələ də qoruyub saxlamışdır.

Müasir milli Azərbaycan tarixşünaslığı qarşısında duran ən mühüm vəzifələrdən biri milli tariximizin bütün dövrlərində baş vermiş ictimai-siyasi və hərbi proseslərə obyektiv elmi münasibət göstərmək onların elmi tədqiqinə və həllinə nail olmasıdır. Azərbayvan Səfəvilər dövlətinin XVI əsrin sonu XVII əsrin əvvəli I Şah Abbas Səfəvi hakimiyyəti dövrünə təsadüf edir və məhz bu dövr tarixşünaslığa Cəlalilər dövrü kimi daxil olmuşdur.

1997-ci ildə Ulu öndər Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, İnstitut direktorları və aparıcı alimləri ilə görüşündə söylədiyi nitqində: "Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır"[1] deyərək Azərbaycan tarixinə dair Sovet dövründə yazılmış əsərlərin ideoloji təsirə məruz qaldığını, buna görə də artıq xalqımızı qane etmədiyini qeyd etmişdir.

Xalqımızın dövlətçilik tarixində Azərbaycan Səfəvi imperiyası ən yüksək mərhələ kimi əvvəlki və sonrakı Azərbaycan dövlətləri tarixində mühüm bir mərhələ təşkil edir. 1501-ci ildə I Şah İsmayıl Azərbaycan Səfəvilər dövlətinin (1501-1736) əsasını qoydu. Onun oğlu I Şah Təhmasib Azərbaycanın Şirvan və Şəki əyalərlərini Səfəvi dövlətinin tərkibinə qatdı. Beləliklə, bütün Azərbaycan torpaqları vahid, mərkəzləşdirilmiş dövlətin tərkibində birləşdirildi.

Dünyanın mühüm ticarət yollarının üzərində yerləşən iki əzəmətli türk dövlətinin – Azərbaycan Səfəvilər və Osmanlı imperiyasının varlığı Avropa hökmdarlarını xeyli narahat edirdi. Avropa diplomatiyası Azərbaycan Səfəvi və Osmanlı imperiyaları arasındakı ixtilaflardan məharətlə istifadə edərək onları müharibəyə təhrik etdilər. Osmanlı-Səfəvi müharibələri hər iki dövlətin ictimai-iqtisadi, siyasi, mədəni potensialının zəifləməsi ilə nəticələndi.

Fasilələrlə 150 ilə yaxın davam edən Səfəvi-Osmanlı qarşıdurması hər iki dövləti Qərb dövlətlərinin təzyiqləri qarşısında aciz qoydu. Onlar arasında baş verən hərbi əməliyyatlar ticarət yollarının, təsərrüfatın

---

[1]Heydər Əliyev.Müstəqilliyimiz əbədir çıxıçlar, nitqlər, bəyanətlər, məktublar, müsahibələr. Noyabr 1996-cı il mart, 1997-ci il. Bakı- 1998, s 369

dağılmasına, əhalinin müflisləşməsinə gətirib çıxardı. Beləliklə, müharibələrin gətirdiyi fəlakətlər, xəzinəni doldurmaq məqsədi ilə əhalidən nəzərdə tutulduğundan daha artıq vergilərin alınması yerlərdə kəndlilərin, sənətkarların, tacirlərin, şərti torpaq mülkiyyətçilərinin narazılığına səbəb olur, bu isə kütləvi çıxışların, üsyanların başlanmasına şərait yaradırdı. XVI əsrin sonlarına doğru Osmanlı-Səfəvi müharibələrinin doğurduğu ictimai-iqtisadi və siyasi sarsıntılar dövründə baş verən Cəlalilər hərəkatı Vətən tarixi elmi istiqamətində indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Buna görə də, "Cəlalilər hərəkatı və Azərbaycan" mövzusunun xüsusi elmi tədqiqat işi kimi seçilməsi elmi və siyasi tarixi zərurətdən doğmuşdur.

1590-cı ildə Azərbaycan Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında imzalanmış İstanbul sülhünə əsasən Osmanlı imperiyası tərkibinə qatılmış Azərbaycan torpaqlarında işğalçı hakimiyyət orqanlarına qarşı üsyanlar Cəlalilər hərəkatı adı ilə məşhur olmuşdur.[1]

XVII əsrin əvvəllərində I Şah Abbasın Osmanlı imperiyasına qarşı hərbi əməliyyatları yenidən başlaması hərəkatın Azərbaycanda geniş vüsət almasına şərait yaratdı. Osmanlılara qarşı müharibənin gedişində I Şah Abbas Cəlalilər hərəkatının iştirakçısı olan ayrı-ayrı dəstə başçılarını rəsmi qaydada Səfəvi qızılbaş ordusunun tərkibinə daxil etdiyi üçün Azərbaycan torpaqlarının Osmanlı işğalından azad edilməsində onlar yaxından iştirak etdilər.

Cəlali dəstələri arasında Kənəkirli Məhəmmədin, Qara Səidin, Canpoladoğlunun, Məhəmməd paşanın rəhbərlik etdiyi dəstələr mühüm yer tuturdu. Cəlalilər hərəkatının rəhbərləri arasında Koroğlu xüsusilə seçilirdi. Koroğlu xalq içərisindən çıxmış böyük sərkərdə idi. Koroğlu Vətənin azadlığı uğrunda qılınc çalan qəhrəman bir sərkərdə olmaqla yanaşı, həm də xalqını yadelli işğalçılara qarşı üsyana səsləyən saz-söz sənətkarı kimi də məşhur olmuşdur. Koroğlunun aşıqlığı, şairliyi onun qəhrəmanlığı ilə vəhdət təşkil edir. Koroğlunun aşıqlığı bəzən onun qəhrəmanlığının davamı olub bu qəhrəmanlığı tamamlayır. Aşıq, şair Koroğlunun hünəri qəhrəman Koroğludan geri qalmır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci il fevralın 21-də xalq qəhrəmanı Koroğlunun abidəsinin açılışındakı nitqində demişdir: "Koroğlu bizim xalq qəhrəmanımızdır. Koroğlu vətənpərvərlik, igidlik rəmzidir. Azərbaycan xalqının qəlbində Koroğlu daim yaşamışdır. Bütün dövrlərdə Koroğlunun xalq qarşısında etdiyi xidmətlər Azərbaycan

---

[1] İsgəndər bəy Münşi. (Tarixe-aləmaraye-Abbasi) Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2014, s.2105.

xalqının xatirəsində yaşamışdır və bu gün də yaşayır. Koroğlu obrazı vətənpərvərlik, igidlik, mərdlik, şücaət obrazıdır. Koroğlu Azərbaycan xalqına xas olan bütün gözəl xüsusiyyətləri özündə əks etdirir. Vətənpərvərlik kimi bu gün də çox vacib olan amil Koroğlu obrazında bariz şəkildə özünü göstərir."[1] Koroğlu xalqın mənafeyini və şərəfini silah gücünə qoruyan bir tarixi şəxsiyyət olduğundan, xalq bu tipli qəhrəmanların adları ətrafında şöhrət oreolu yaratmışdır. Xalq qəhrəmanlarının simasında həm folklor yaradıcısının arzu və istəkləri, həm də böyük bəşəri idealları əks olunmuşdur.

Təəssüflər olsun ki, XVI əsrin sonu – XVII əsrin əvvəllərində Şərqi Anadoluda və Azərbaycanda baş verən Cəlalilər hərəkatı uzun müddət tarixi ədəbiyyatda Osmanlı Türkiyəsi amili kimi qeyd olunmuşdur. Cəlalilər hərəkatının yalnız Osmanlı Türkiyəsi tarixi ilə bağlı olduğunu iddia etmək, həmin hərəkatın tarixini müasir Türkiyə Cümhuriyyəti hüdudunda araşdırmağa çalışmaq tarixi gerçəkliklərə tamamilə ziddir. Çünki Şərqi Anadolu və Azərbaycan tarixin bütün mərhələlərində ictimai-iqtisadi, siyasi və mədəni vəhdətdə olmuşdur.[2] XVI əsrin sonlarında Azərbaycan xalqının azadlıq mübarizəsi Osmanlı imperiyasında baş verən xalq hərəkatı ilə səsləşir və üzvi şəkildə birləşirdi.[3] Buna görə də, Azərbaycanda Cəlalilər hərəkatının xüsusi tədqiqat mövzusu kimi araşdırılmasına böyük ehtiyac vardır. Bu, mövzunun aktuallığını şərtləndirən mühüm amillərdən biridir.

İsgəndər bəy Münşi Səfəvi-Osmanlı müharibələrinin növbəti mərhələsi (1603-1607) ərəfəsində Səfəvi dövləti ilə həmsərhəd Osmanlı ərazisində Cəlalilər hərəkatının genişlənməsini I Şah Abbasın Azərbaycanı, Cənubi Qafqazı azad etmək məqsədilə hərbi yürüşə çıxmaq qərarı ilə əlaqələndirir. Onun fikrincə, Osmanlı dövlətinə qarşı müharibəyə başlamaq qərarına gələn I Şah Abbas belə hesab edirdi ki, "irsən bizim müqəddəs nəslimizə məxsus olan Azərbaycan və Şirvan ölkələrini sayca az olan və öz padşahına (Osmanlı sultanına – A.K.) qarşı mübarizə aparan Cəlalilərin

---

[1] Prezident İlham Əliyevin xalq qəhrəmanı Koroğlunun abidəsinin açılışında nitqi. //Azərbaycan qəzeti 22 fevral 2012-ci il.

[2] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981, с.52; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, //"Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı: 2012, s. 186.

[3] Azərbaycan tarixi, Yeddi cilddə, üçüncü cild. Bakı: Elm, 1999, s. 245.

hakimiyyəti altında saxlamaq, həmin ölkələrin fəth olunması üçün yaranmış əlverişli məqamı əldən vermək ağıllı şəxslərə xas olmayan hərəkətdir”.[1]

Bu, bir daha göstərir ki, XVII əsrin başlanğıcında I Şah Abbasın Osmanlı imperiyasının işğalı altında qalan Azərbaycan torpaqlarını azad etmək məqsədilə hərbi əməliyyatlara başladığı bir dövrdə Cəlalilər hərəkatı Azərbaycanda geniş vüsət aldığı üçün Azərbaycan Səfəvi hökmdarı yaranmış əlverişli vəziyyətdən istifadə etməyə çalışmışdır.

Səfəvi-Osmanlı müharibəsinin yenidən başlaması dövründə Azərbaycanda geniş yayılan Cəlalilər hərəkatının Vətən tarixi elmində son dövrlərə kimi araşdırılmaması bizə onu xüsusi tədqiqat mövzusu kimi seçməyə imkan vermişdir.

***Tədqiqatın xronoloji çərçivəsi.*** Dissertasiya işi XVI əsrin sonu – XVII əsrin əvvəllərində Azərbaycanda geniş yayılan və Azərbaycan Səfəvi hökmdarı I Şah Abbas tərəfindən himayə olunan Cəlalilər hərəkatının tədqiqinə həsr olunmuşdur. Dövrün tarixi mənbələlərinin verdiyi məlumatlar bəhs olunan dövrdə Cəlalilər hərəkatının tarixində iki mərhələni ayırmağa imkan verir:

1. XVI əsrin ikinci yarısı;
2. XVII əsrin birinci rübü.

Tədqiqatın gedişində aydınlaşdırılmışdır ki, bu hərəkat XVI əsrin sonlarına kimi sosial xarakter daşımış, yalnız sonrakı mərhələdə daha çox siyasi hərəkata çevrilmişdir.[2] Cəlalilər hərəkatı həmin dövrdə baş vermiş mühüm hərbi-siyasi hadisələrlə üzvi əlaqədə araşdırılır, Şərqi Anadoluya və Azərbaycana etnosiyasi vəhdət, tam kimi yanaşılır.

***Mövzunun öyrənilməsi səviyyəsi.*** Problemin tədqiqi səviyyəsinin müəyyənləşdirilməsi üçün məsələyə diqqət etmiş bəzi tarixçilərin əsərlərinə nəzər yetirmək zəruridir. Bu sahədə önəmli olan məsələ müəyyən tədqiqatçının Cəlalilər hərəkatına yanaşma tərzidir. Əgər son zamanlara kimi Qərb ölkələri və Türkiyə Cümhuriyyəti tarixçiləri bu hərəkatın öyrənilməsinə daha çox faktoloji cəhətdən yanaşırdılarsa, sovet (o cümlədən həmin dövrdə Azərbaycan – A.K) tarixçiləri hərəkatla bağlı olan məsələlərin araşdırılmasına marksizm-leninizmin “sinfilik nəzəriyyəsi” mövqeyindən yanaşmışlar. Sovet İttifaqı dağıldıqdan, marksizm-leninizm ideologiyası iflasa uğradıqdan sonra Cəlalilər hərəkatı tarixinin tədqiqinə yeni yanaşma tələb olunur.

---

[1] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке, с. 53; Azərbaycan tarixi, Yeddi clddə, üçüncü cild, s. 247; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 187.

[2] Akdağ M. Celali isyanları (1550-1603). Ankara Ünivesiteri Basımevi, Ankara: 1963, s.123.

Baş vermiş bu üsyanlardan bəziləri tədqiqatçılar tərəfindən araşdırılsa da, hələlik onların hərtərəfli tədqiqinə, hərəkatın səbəblərinin müəyyən edilməsinə və eyni zamanda Azərbaycan Səfəvi-Osmanlı münasibətlərində bu üsyanların yerinə və təsirinə dair əsaslı bir tədqiqat əsəri yoxdur.

Sovet tarix elmində Cəlalilər hərəkatına "sinfi mübarizə" mövqeyindən yanaşılmışdır.[1] Bu yanaşma tərzi tədqiqatçı üçün bir sıra metodoloji problemlər yaradır. Ə.Ə.Rəhmani Azərbaycan Səfəvi dövlətinin siyasi tarixinə həsr olunmuş əsərlərində Cəlalilər hərəkatının fəaliyyətinə xüsusi yer vermişdir.[2] O, Cəlalilər hərəkatını təhlil edərək onu "antifeodal səciyyəli kəndli üsyanları" kimi qiymətləndirmiş və "üsyançıların siyasi proqramlarının olmadığını", "hərəkatın məhdud maraqlar çərçivəsində baş verdiyini", xırda feodalların və müflisləşmiş torpaq sahiblərinin də Cəlali üsyanlarında iştirak etdiklərini, bir çox hallarda xəyanət edərək hərəkatın başsız qalmasına və sıravi iştirakçılara amansız divan tutulmasına səbəbkar olduqlarını qeyd edir.[3]

Y.M.Mahmudov "Azərbaycan diplomatiyası" adlı əsərində XVI əsrin sonu-XVII əsrin başlanğıcında Səfəvi-Osmanlı müharibələri tarixində əsaslı dönüş baş verdiyini, Şah Abbasın həyata keçirdiyi bir sıra daxili islahatlardan, o cümlədən hərbi islahatdan sonra Səfəvi dövlətinin Osmanlı imperiyası üzərində parlaq qələbələr çaldığını, Osmanlı imperiyasının bütün Cənubi Qafqazı, o cümlədən Azərbaycanı, ələ keçırıb Xəzər

---

[1] Мамедов С.А. Азербайджан по источникам XV – первой половине XVIII вв. Баку: Элм, 1993; Новичев А.Д. История Турции. Том I. Эпоха феодализма (XI – XVIII вв.). Л: Изд. Ленинградского университета, 1963; Новосельцев А.П. Из истории классовой борьбы в Азербайджане и Восточной Армении в XVII-XVIII вв. Исторические записки. 1960. № 67, с. 236-247; Петрушевский И.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Л.: Изд-во Ленинградского Университета, 1949; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700 годы). Баку: Элм, 1981; Рахмани А.А. Состояние городов и антиосманкие восстания в Азербайджане в начале XVII в. //Известия АН Азерб. ССР, серия история, философии и права, №1. Баку: Изд-во АН АзССР, 1972, с. 43-51; Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку: Изд-во АН АзССР, 1960; Тверитинова А. Восстание Кара Языджи-Дели Хасана в Турции. М.-Л: 1946.

[2] Bax: Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке, с. 46-63; Рахмани А.А. Состояние городов и антиосманкие восстания в Азербайджане в начале XVII в., с. 43-51; Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана, с. 114-116.

[3] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке, с. 52.

hövzəsində möhkəmlənmək planının qəti olaraq boşa çıxdığı haqqında əhəmiyyətli məlumatlar vermişdir [1].

S.A.Məmmədov "Azərbaycan XV-XVIII əsrin birinci yarısı qaynaqlarında" adlı əsərində Azərbaycanda Cəlalilər hərəkatının fəaliyyətinə xüsusi paraqraf ayırmış, dövrün ermənidilli və farsdilli qaynaqlarına istinad edərək hərəkatın fəaliyyətinə aydınlıq gətirməyə çalışmışdır.[2] F.Q.Namazovanın tədqiqatlarında "Koroğlu dastanı" əsas qaynaq götürülməklə Cəlalilər hərəkatı, o cümlədən Koroğlunun fəaliyyəti xüsusi tədqiqat mövzusu kimi araşdırılmışdır.[3]

T.H.Nəcəflinin "Cəlalilər hərəkatı və Azərbaycan" adlı məqaləsində ilkin mənbələrdən istifadə olunmaqla Cəlalilər hərəkatının və onun rəhbəri Koroğlunun Şərqi Anadolu və Azərbaycandakı fəaliyyətinə aydınlıq gətirilməyə çalışılmışdır.[4]

Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlərdə də Cəlalilər hərəkatının Azərbaycandakı fəaliyyətinə xüsusi yer verilmişdir. Burada Cəlalilər hərəkatının yayıldığı coğrafi areal müəyyən olunmuş, Cəlali rəhbərlərindən Koroğlu və silahdaşları barədə müfəssəl məlumat verilmişdir.[5]

Cəlalilər hərəkatına başçılıq edən rəhbərlər arasında Koroğlu xüsusilə seçilirdi. Koroğlu şəxsiyyəti və onunla əlaqədar hadisələr Azərbaycan folklorunda özünün geniş əksini tapmışdır. Qəhrəmanlıq cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşıq sənətinin bilicisi olan Koroğlunun real tarixi şəxsiyyət olmasını tarixi tədqiqatlar təsdiq edir.

Tarixi ədəbiyyatda Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən P.N.Boratav olmuşdur. O, Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan "Mühimmə dəftərləri"ndən Koroğlu ilə bağlı 4 sənəd aşkara çıxarmışdır.[6] Sovet tarixşünaslığında Koroğlunun tarixi

---

[1] Bax: Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, s. 11.

[2] Bax: Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı: APİ, 1981, s.65-67; Yenə onun: Азербайджан по источникам XV – первой половине XVIII вв., с. 188-203.

[3] Bax: Namazova F.Q. Qəhrəmanlıq dastanları tarixi mənbə kimi: "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları əsasında: Tarix üzrə fəlsəfə doktoru dissertasiyasının Avtoreferatı. Bakı: 2008; Yenə onun: Namazova F.Q Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu. //"Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı: 2012, s. 71-78.

[4] Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, //"Folklor və tariximiz" mövzusunda Respublika Elmi Konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı: 2012, s. 186-194.

[5] Bax: Azərbaycan tarixi (ən qədim dövrlərdən XX əsrədək), I cild. Bakı: Çıraq nəşriyyatı, 2007, s.491-496; Azərbaycan tarixi, Yeddi clddə, üçüncü cild, s.243-250.

[6] Boratav P.N. Kör Oğlunun tarihi şahsiyeti, II. Tarih Kongresi (Ankara, 12-20 Kasım, 1943), Ankara, 1948, s. 124-129.

şəxsiyyət olduğunu ilk dəfə qeyd edən İ.P. Petruşevski olmuşdur.[1] Həmin fikri İ.S.Braqinski də müdafiə etmişdir. O yazır: "Müəyyən edilmişdir ki, Koroğlunun prototipi Azərbaycanda fəaliyyət göstərən real tarixi şəxsiyyət olmuşdur".[2] Koroğlunun tarixi şəxsiyyət olduğunu və onun rəhbərliyi altında Cəlalilər hərəkatının baş verdiyini A.P.Novoseltsev də qəbul edir.[3]

Sovet tarixçilərindən A.Tveritinovanın əsərində Qara Yazıcı və Dəli Həsənin başçılığı altında Cəlalilərin fəaliyyəti tədqiq olunmuşdur.[4] A.D. Noviçev və Y.A.Petrosyanın əsərlərində də Cəlalilər hərəkatının fəaliyyətinə xüsusi yer verilmişdir.[5]

Cəlalilər hərəkatının Azərbaycandakı fəaliyyəti ilə bağlı məsələlər İ.P.Petruşevskinin əsərində öz əksini tapmışdır.[6] O, Cəlalilər hərəkatının Azərbaycanın İrəvan, Naxçıvan və Salmas-Xoy bölgələrində fəaliyyət göstərdiyini, hərəkatın rəhbərləri arasında Kənəkirli Məhəmmədin, Koroğlunun və Giziroğlu Mustafa bəyin mühüm yer tutduğunu qeyd edir.[7] İ.P.Petruşevskinin bu sahədə tədqiqatının dəyəri ondan ibarətdir ki, o, Cəlali üsyanlarını Azərbaycan tarixi ilə əlaqələndirmişdir.[8]

İran tarixçisi R.Rəisniyanın "Əfsanə və tarixdə Koroğlu" adlı əsərində[9] tarixi qaynaqlardan və elmi ədəbiyyatdan istifadə olunmaqla Cəlalilər hərəkatının Şərqi Anadoluda və Azərbaycanda başlamasının səbəblərinə aydınlıq gətirilmiş, Koroğlunun tarixi şəxsiyyət olduğu bir daha vurğulanmışdır.[10]

Cəlalilər hərəkatının tarixi Türkiyə Cümhuriyyəti tarixçiləri tərəfindən daha geniş şəkildə tədqiq olunmuşdur. Qeyd etmək lazımdır ki, Türkiyə tarix elmində Cəlalilər hərəkatının öyrənilməsinə hələ XX əsrin 20-ci

---

[1] Петрушевский И.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв., с. 327.

[2] Брагинский И.С. Заметки о таджикском эпосе «Гургули». //Крат. сообщ. Ин-та востоковедения АН СССР, т. IX. М.: 1953, с. 46.

[3] Новосельцев А.П. Из истории классовой борьбы в Азербайджане и Восточной Армении в XVII-XVIII вв. Исторические записки. 1960. № 67, с. 236-237.

[4] Тверитинова А. Восстание Кара Языджи-Дели Хасана в Турции. М.-Л: 1946.

[5] Bax: Новичев А.Д. История Турции. Том I., с. 93-101; Петросян Ю.А. Османская империя: могущество и гибель. Исторические очерки. М:Наука,1990, с. 109-110.

[6] Петрушевский И.П. Азербайджан в XVI-XVП вв. Сборник статей по истории Азербайджана. Вып.1. Баку: 1949, с. 275.

[7] Петрушевский И.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении, с. 327-328.

[8] Yenə orada, s. 328.

[9] Rəisniya R. Əfsanə və tarixdə Koroğlu. Nima Nəşriyyatı, Təbriz: 1989.

[10] Bax: Yenə orada, s. 118-122.

illərində başlanılmışdır. 1928-ci ildə Abdizadə Hüseyn Hüsaməddinin nəşr olunan "Amasiya tarixi" əsərində Qara Yazıcının və silahdaşlarının Amasya ətrafındakı fəaliyyəti öz əksini tapmışdır.[1]

XX əsrin 30-40-cı illərində Türkiyə tarixşünaslığında Cəlalilər hərəkatı və Koroğlunun fəaliyyəti ilə bağlı P.N.Boratavın araşdırmaları işıq üzü gördü. O, 1931-ci ildə Koroğlu dastanını nəşr etdirdikdən sonra Cəlalilər hərəkatına maraq daha da artdı.[2] Onun 1943-cü ildə II Tarix Kongresinə hazırladığı məruzəsində Koroğlunun tarixi şəxsiyyət olduğu əsaslandırıldı.[3]

Türkiyə milli tarix elmində bu sahədə aparılmış ən mükəmməl tədqiqat işi Mustafa Akdağa məxsusdur.[4] Dövrün yazılı qaynaqları və arxiv sənədləri ilə ətraflı tanış olan tədqiqatçı oxucunu Cəlalilər hərəkatını doğurmuş səbəblərlə, bu dövrdə Osmanlı imperiyasının üzləşdiyi siyasi və iqtisadi problemlərlə, Cəlalilər hərəkatının əsas qüvvələrinin meydana gəlməsi ilə, Sultanın və Osmanlı hökumətinin gördüyü tədbirlərlə yaxından tanış edir.[5]

Türkiyə Cümhuriyyəti tarixçilərindən Y.Öztunanın "Başlangıcından zamanımıza qədər Türkiyə tarixi"[6] və İ.H.Uzunçarşılının "Osmanlı tarixi"[7] adlı əsərlərində Cəlalilər hərəkatının fəaliyyətinə xüsusi yer verilmişdir. İ.H.Uzunçarşılının qənaətinə görə, nizami Osmanlı ordusu tərəfindən sıxışdırılan Cəlalilər başda Qələndəroğlu və Qara Səid olmaqla Səfəvilərə sığınmışdır.[8]

F.Sümer "Səfəvi dövlətinin yaranması və inkişafında Anadolu türklərinin rolu" adlı əsərində 1608-ci ildə Qələndəroğlu Məhəmməd paşanın, Qara Səidin, Kekeç Məhəmmədin, Ağacdan Birinin, Təvil Əhmədin və Misirli Yusifin rəhbərliyi altında 13 605 nəfər cəlalinin Şah Abbasa

---

[1] Amasiyalı Abdi zade Hüseyn Hüsameddin. Amasiya tarihi. c. III, İstanbul: 1928, s. 328-338,342,347,355..
[2] Bax: Boratav P.N. Köroğlu destanı. Türkiyat Enstitüsü Yayınlarından, İstanbul:1931, s. 12-16.
[3] Bax: Boratav P.N. Kör Oğlunun tarihi şahsiyeti, s. 124-129.
[4] Akdağ M. Türk halkının dirilik ve düzenlik kavqası. CEM Yayımevi, İstanbul: 1995, s. 45.
[5] Akdağ M. Türk halkının dirilik ve düzenlik kavqası, s. 86.
[6] Bax: Öztuna Yılmaz T. Başlangıcından zamanımıza kadar Türkiye tarihi. c.8. Hayat Kitapları, İstanbul: 1965, s.95-96,102-105.
[7] Bax: Uzunçarışlı İ.H. Osmanlı tarihi. II. Selimin tahta çıkmasından 1699 Karlofça andlaşmasına kadar. III cilt, I. Kısım. Türk Tarih Kurumu Basım Evi, Ankara: 1988, s. 99-113.
[8] Yenə orada, s. 109.

sığındığını və Səfəvi şahının daha çox Qələndəroğlu Məhəmmədə etibar etdiyini yazır.[1]

F.Sümer "Oğuzlar" adlı əsərində də Koroğlunun fəaliyyətinə xüsusi diqqət yetirmiş və aşıqların hələ XVII əsrin başlanğıcında onun igidliklərindən bəhs edən dastanlar söyləməyə başladığını qeyd etmişdir.[2] F.Sümer 1987-ci ildə Koroğlu, Giziroğlu Mustafa və Dəmirçioğlu ilə bağlı nəşr etdirdiyi sənədlərdə Cəlali rəhbərlərindən olan həmin şəxslər barədə mühüm məlumat vermişdir. O, "Mühimmə dəftərləri"ndən Koroğluya aid səkkiz, Giziroğlu Mustafa bəyə aid dörd və Dəmirçioğluna aid iki sənədi çap etdirmişdir.[3] F.Sümer rəsmi sənədlərə istinad edərək Koroğlu və silahdaşlarının real tarixi şəxsiyyət olduğunu bir daha təsdiq etmişdir.[4]

Sonralar Cəlalilər hərəkatı ilə bağlı olan ayrı-ayrı məsələlər Türkiyə tarixçilərindən F.Acunun, B.Y. Altınokun, D.Avçıoğlunun, C.C.Aktanın, A.R.Gökpınarın, D.Diləyicinin, Ö.Saracın, U.Efqanın, M.K. Ərdoğanın, Y.Koçun, S.Polatın, A.Pulun, M.İlgürelin və başqa tarixçilərin tədqiqat əsərlərində araşdırılmışdır.[5]

***Tədqiqatın məqsəd və vəzifələri.*** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd XVI əsrin sonu – XVII əsrin əvvəllərində Cəlalilər

---

[1] Sümer F. Safevi Devletinin Kuruluşu ve Yetişmesinde Anadolu Türklerinin Rolü. Türk Tarih Kurumu Basımevi,Ankara: 1999, s. 154-155.

[2] Sümer F. Oğuzlar: Tarixləri, boy təşkilat, dastanları. Türk dilindən tərcümə edəni Ramiz Əsgər. Bakı: Yazıçı, 1992, s. 154.

[3] Bax: Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar. Türk Dünyası Araştırmaları. Şubat 1987, s. 9-44.

[4] Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s. 20-21.

[5] Bax: Acun F. Celaliler isyanları (1510-1611) //Türkler, c. IX. Yeni Türkiye Yayınları, Ankara: 2002, s. 695-708; Altınok B.Y. Köroğlu ile Kiziroğlu Mustafa Orta Anadoluda //Türk Kültürü ve Hacı Bektaş Veli, 2008, s. 215-262; Avçıoğlu D. Türkiyenin düzeni (dün-bugün-yarın). Birinci Kitap. Tekin Yayımevi, İstanbul: 1987; Aktan C.C., Dileyici D., Sarac Ö. Osmanlı tarihinde vergi isyanları //Süleyman Demirel Universitesi İqtisadi ve İdari Bilimler fakültesi. Yıl 2002, c.7,sayı 2. s.1-20; Gökbınar A.R. Celali ayaklamalarının maliye tarihi açısından değerlendirelmesi //Yönetim ve ekinimi. Yıl: 2007, cilt:14, sayı: 1. Manisa: Celal Bayar Üniversitesi İ.İ.B.F. s. 1-24; Efgan U. Osmanlı ülkesinde görülen isyan ve eşkiyalık olayları karşısında alınan bazi tedbirler hakkında bir degerlendirme. //Türklük Bilimi Araştırmaları, c. XXV, Niğde, 2009: s.185-214; Erdoğan M.K. Karayazıcı isyanı //Osmanqazi Üniversitesi Sosial Bilimler Dergisi, cilt 4, sayı 2. Aralık 2003, s. 53-66; Koç Y. Osmanlda toplumsal dinamizmden Celali isyanlarına giden yol, ya da iki belgeye tek yorum //Güz. 2005, sayı 35, s.229-245; Polat S. Kuyucu Murat paşanın Celali seferi finansmanı //Tarih İncelemeleri Dergisi, XXIX/2, 2014, s. 563-603; Pul A. Kuyucu Murat paşanın Anadoluda Celalilerle mücadilesine dair bir Osmanlı kaynağı. //Uluslararası Sosial Araştırmalar Dergisi, cilt 5, sayı 20. 2012, s.206-212; İlgürel M. Celali isyanları //Diyanet İslam Ansiklopedisi, c. XXII. İstanbul: 2001, s. 252-257; İlgürel M. Karayazıcı Abdülhalim //Diyanet İslam Ansiklopedisi, c. XXIV. İstanbul: 2001, s. 483.

hərəkatının baş verməsinin və Azərbaycana yayılmasının səbəblərini, hərəkat iştirakçılarının məqsədlərini müəyyənləşdirmək, hərəkatın Azərbaycanda geniş vüsət almasının səbəblərini aydınlaşdırmaq, hərəkatda iştirak etmiş əhalinin ictimai tərkibini və hərəkatın əsas rəhbərlərini üzə çıxarmaq, onların tanınmış rəhbərlərindən biri olan Koroğlunun fəaliyyətinə dövrün qaynaqlarından istifadə etməklə aydınlıq gətirməkdir.

Müəllif problemin əhəmiyyətini, aktuallığını, həm də indiyədək ayrıca tədqiqat mövzusu olmadığını nəzərə alaraq aşağıdakı vəzifələri həll etməyə çalışmışdır:

- Tarix elmində indiyədək Cəlalilər hərəkatının öyrənilməsinə münasibəti aydınlaşdırmaq;
- Cəlalilər hərəkatının başlanması ərəfəsində Azərbaycan Səfəvi dövlətinin ictimai-iqtisadi və siyasi vəziyyətini təhlil etmək;
- XVI əsrin sonu – XVII əsrin əvvəllərində baş vermiş Osmanlı-Səfəvi müharibələrinin Cəlalilər hərəkatının başlanmasına təsirini işıqlandırmaq;
- Cəlalilər hərəkatında iştirak etmiş üsyançıların sosial tərkibini və məqsədlərini təhlil etmək;
- Azərbaycan Səfəvi hökmdarı I Şah Abbasın Cəlalilər hərəkatına münasibətini aydınlaşdırmaq;
- Cəlalilər hərəkatını əks etdirən qaynaqlara əsaslanaraq hərəkatın inkişaf dinamikasını araşdırmaq, hərəkatın Azərbaycanda geniş yayılmasının səbəblərinə aydınlıq gətirmək;
- Cəlalilər hərəkatının Azərbaycanda fəaliyyət göstərən rəhbərlərini müəyyən etmək və onların fəaliyyətini işıqlandırmaq;
- Dövrün qaynaqlarından istifadə etməklə Cəlalilər hərəkatının rəhbərlərindən biri olan Koroğlunun fəaliyyətini araşdırmaq və əldə edilmiş məlumatları təhlil edərək ümumiləşdirməkdir.

***Tədqiqatın mənbə bazası.*** Azərbaycanda Cəlalilər hərəkatının fəaliyyətini işıqlandıran qaynaqlar çox olmasa da, həmin qaynaqlarda əks olunmuş məlumatlar bizə bu hərəkatın baş verməsinin səbəblərini, gedişini, aparıcı qüvvələrini tam, aydın təsəvvür etmək imkanı verir. Nəzərə alınmalıdır ki, bu qaynaqların əksəriyyəti dövrün salnaməçiləri tərəfindən yazılmışdır. Buna görə də həmin əsərlərdəki məlumatlar rəsmi dairələrin siyasətini özündə əks etdirir. Məhz buna görə də, biz həmin müəlliflərin subyektiv müddəalarının təsirindən sığortalanmamışıq. Məlumdur ki, hər

bir tarixi qaynağın öyrənilməsi yalnız o halda səmərə verə bilər ki, onlar dövrün xüsusiyyəti nəzərə alınmaqla, tarixilik baxımından tədqiq edilsin.[1]

Cəlalilər hərəkatının araşdırılması üçün mühüm mənbələrdən biri Azərbaycanın orta əsr tarixşünaslığının görkəmli nümayəndəsi, tarixçi İsgəndər bəy Münşinin fars dilində yazdığı "Tarixe-aləmaraye-Abbasi ("Dünyanı bəzəyən Abbasın tarixi") əsəridir.[2] Cəlalilər hərəkatı haqqında mühüm məlumatlar onun əsərinin ikinci cildində öz əksini tapmışdır.[3]

Cəlalilər hərəkatının tanınmış rəhbərlərindən biri olan Koroğlu haqqında mühüm məlumatlar I Şah Abbasın saray münəccimi olan Məhəmməd Cəlaləddin Münəccimin fars dilində yazdığı "Tarix-i Abbasi" əsərində öz əksini tapmışdır.[4] M.C.Münəccimin Koroğlunun fəaliyyəti ilə bağlı verdiyi məlumatlar onun real tarixi şəxsiyyət olduğunu bir daha təsdiq edir.[5]

Dövrün farsdilli qaynaqları ilə yanaşı, erməni müəllifi Arakel Təbrizlinin "Tarix kitabı"nda Səfəvi-Osmanlı qarşıdurması dövründə bölgənin ictimai-iqtisadi vəziyyəti və Cəlali üsyan başçıları haqqında mühüm məlumatlar verilir.[6]

Cəlalilər hərəkatını öyrənmək üçün dövrün yazılı mənbələri arasında Osmanlı tarixçilərinin, eləcə də arxiv sənədlərinin verdiyi məlumatlar öz əhəmiyyətini qoruyub saxlamışdır. Osmanlı qaynaqları arasında Mustafa Selanikinin "Tarix-i Selaniki" adlı əsəri mühüm yer tutur.[7] Cəlalilər hərəkatının

---

[1] Рахмани А.А. Состояние городов и антиосманкие восстания в Азербайджане в начале XVII в., с. 45.

[2] İsgəndər bəy Münşi. ("Tarixe-aləmaraye-Abbasi") Dünyanı bəzəyən Abbasın tarixi. I kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2010; İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2014; İsgəndər bəy Münşi. Tarix-i alamara-yi Abbasi. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı: Təhsil, 2009.

[3] Bax: İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s.1378-1397, 1404-405,1438-1442.

[4] Molla Cəlaləddin Münəccim Yəzdi. Tarix-i Abbasi. Be kuşiş-i Seyfulla Vəhidi. Tehran: İntişarat Vəhid. Çapı əvvəl, 1366 h.ş.

[5] Yenə orada, s. 254.

[6] Даврижеци Аракел. Книга историй. Перевод с армянского, словие и комментарии Л. А. Ханларян. Москва: 1973, с. 94-95.

[7] Selaniki M. E. Tarih-i Selaniki (971-1003/1563-1595). Cilt 1. Hazırlayan Mehmet İpşirli. TTK Yayınları, Ankara: 1999; Yenə onun: Tarih-i Selaniki (1003-1008/1595-1600). Cilt 2. Hazırlayan Mehmet İpşirli. TTK Yayınları, Ankara: 1999.

öyrənilməsində mühüm mənbələrdən biri də İbrahim Əfəndi Peçevinin “Tarix-i Peçevi” əsəridir.[1]

Cəlali üsyanları və ümumiyyətlə, həmin dövrün ictimai-iqtisadi vəziyyəti haqqında ətraflı məlumat vermiş Osmanlı müəlliflərindən biri də “Hacı Xəlifə” kimi tanınan Katib Çələbidir.[2] Onun “Fəzləkə” adı ilə tanınan əsəri 1592-1654-cü illər arasında baş vermiş hadisələri əks etdirir.[3] Osmanlı tarixçilərindən Mustafa Nəimanın “Nəima tarixi” adlı əsərində Cəlalilər hərəkatı haqqında mühüm məlumat verilir.[4] Cəlalilər hərəkatı ilə bağlı mühüm məlumatlar Osmanlı müəllifi Mehmed Solakzadənin “Solakzadə tarixi” əsərində də öz əksini tapmışdır.[5]

Cəlalilər hərəkatı və hərəkatın rəhbərlərindən olan Koroğlu, Dəmirçi oğlu və Giziroğlu Mustafa bəylə bağlı mühüm məlumatlar Osmanlı “Mühimmə dəftərləri”ndə də öz əksini tapmışdır.[6] Həmin sənədlərdə Koroğlu və silahdaşlarının 1580-ci ildə mübarizəyə başlaması barədə müfəssəl məlumat verilir. Biz Türkiyə tarixçisi F.Sümerin Koroğlu, Giziroğlu Mustafa bəy və Dəmirçioğlu ilə bağlı nəşr etdirdiyi “Mühimmə dəftərləri”ndəki sənədlərdən istifadə etmişik.

***Dissertasiya işinin metodoloji əsası.*** Tədqiq olunan problemin araşdırılmasında tarixi yanaşma, tənqidi-analitik üsuldan, müqayisəli təhlil, tarixi gerçəkliklərin aydınlaşdırılmasında prosesləri doğuran səbəb və nəticələrin əlaqəsi metodundan istifadə edilmiş, dünya tarix elminin və Vətən tarixşünaslığının son nailiyyətləri nəzərə alınmışdır. Tədqiqatın gedişində istifadə olunmuş əsas üsul elmi araşdırmalarda geniş yayılmış müqayisəli təhlil metodudur.

Tədqiq olunan problemlə bağlı bütün mənbə məlumatları tənqidi yanaşma əsasında sistemləşdirilmiş, müxtəlif qaynaqlarda və tədqiqat əsərlərində öz əksini tapmış materialların müqayisəsi təhlil əsasında

---

[1] Peçevi İbrahim Efendi. Peçevi tarihi. ç.I. Hazırlayan dr. Bekir Sıtkı Baykal. Ankara: 1992; Peçevi İbrahim Efendi Peçevi tarihi. ç. II. Hazırlayan dr. Bekir Sıtkı Baykal. Ankara: 1992.

[2] Çelebi Katip. Fezleke. c.II. Ceride-yihavadis, İstanbul: 1287.

[3] Çelebi Katip. Fezleke. c.II. Ceride-yihavadis, İstanbul: 1287.s. 53-54.

[4] Bax: Nəima M. Tarih-i Naima. c.I. Matba-i Amire, İstanbul: 1864; Naima M.E. Tarih-i Naima. Haz. Mehmet İpşirli, cilt 1, TTK, Ankara: 2007.

[5] Bax: Solak-zade tarihi. ç. II. Neşre hazır: dr. Vahid Çabuk. Kultur Bakanlığı Yayınları, Ankara: 1989, s. 88, 417- 419,459; Solak-Zadə Mehmed. Tarix. Osmanlı türk dilindən tərcümə edəni Z.M.Bünyadov. Bakı: 1992, s.69,73.

[6] Bax: Akdağ M. Türk halkının dirilik ve düzenlik kavqası, s.519; Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s. 9-46.

araşdırılmış, faktlar və hadisələr haqqında məlumatlar ümumiləşdirilərək problemin hərtərəfli şərhinə cəhd edilmişdir.

***Tədqiqatın elmi yeniliyi.*** Təqdim edilən dissertasiya işində qarşıya qoyulan bütün elmi məsələlər araşdırılarkən ilk mənbələrin məlumatları, birinci növbədə faktiki materiallar əsas tutulmuşdur. Vətən tarixi elmində ilk dəfə olaraq tədqiq olunan araşdırmada aşağıdakı elmi nəticələr əldə olunmuşdur:

- Vətən tarixi elmində ilk dəfə olaraq Azərbaycanda Cəlalilər hərəkatı ilə bağlı məlumat verən yazılı qaynaqlar sistemləşdirilmiş və elmi ədəbiyyat təhlil edilmişdir;
- Cəlalilər hərəkatının başlanması ərəfəsində Azərbaycan Səfəvi dövlətinin ictimai-iqtisadi və siyasi vəziyyəti təhlil edilmiş, Səfəvi-Osmanlı müharibələrinin Cəlalilər hərəkatının başlanmasında mühüm rol oynadığı sübut olunmuşdur;
- Cəlalilər hərəkatında iştirak etmiş üsyançıların sosial tərkibi və məqsədləri aydınlaşdırılmışdır;
- I Şah Abbasın Cəlalilər hərəkatına münasibəti aydınlaşdırılmış, Səfəvi-Osmanlı müharibəsinin gedişində Səfəvi hökmdarının Cəlali dəstələrindən Osmanlı ordusuna qarşı döyüşlərdə istifadə etməsi ətraflı işıqlandırılmışdır;
- Dövrün qaynaqlarına əsaslanaraq Cəlalilərin Şərqi Anadolu ilə yanaşı, Azərbaycanın İrəvan, Səlmas-Xoy və Naxçıvan bölgələrində geniş fəaliyyət göstərdiyi təsdiq edilmişdir;
- Cəlalilər hərəkatının rəhbərlərindən biri olan Koroğlunun fəaliyyəti mənbə materialları əsasında təhlil edilmiş, onun real tarixi şəxsiyyət olduğu əsaslandırılmış, dövrün qaynaqlarının "Koroğlu" dastanı ilə müqayisəli təhlili nəticəsində Cəlalilər hərəkatının Azərbaycanda fəaliyyəti tədqiq edilərək ümumiləşdirilmişdir.

***Dissertasiyanın nəzəri praktiki əhəmiyyəti***. Tədqiqat işinin təcrübi əhəmiyyəti onunla izah edilir ki, dissertasiyada istifadə olunmuş faktiki materiallardan və əldə olunmuş nəticələrdən universitetlərin tarix fakültələrində "Cəlalilər hərəkatı və Azərbaycan" mövzusunda ixtisas kurslarının aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında, tədris və dərs vəsaitlərinin hazırlanmasında, elmi konfrans və seminarların keçirilməsində geniş istifadə oluna bilər.

***Tədqiqatın aprobasiyası.*** Tədqiqat işi AMEA-nın A.A.Bakıxanov adına Tarix institutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmiş, müzakirə edilmiş və müdafiəyə buraxılmışdır. Dissertasiyanın

başlıca müddəaları müəllifin müxtəlif məcmuələrdə nəşr olunmuş elmi məqalələrində, konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır:

***Dissertasiyanın qurulusu.*** Dissertasiya işi giriş, iki fəsil, beş yarımfəsildən, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti göstərilir, həmçinin dissertasiyanın aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**"Cəlalilər hərəkatını doğurmuş tarixi şərait"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. ***"Cəlalilər hərəkatının tarixi kökləri"*** adlanan birinci yarımfəsildə 1519-cu ildə Şərqi Anadoluda Şeyx Cəlalın rəhbərliyi altında başlayan və tarixə "Cəlalilər hərəkatı" kimi daxil olan üsyanların XVI əsrin ikinci yarısında daha da güclənməsi və Osmanlı imperiyasının əksər vilayətlərini əhatə etməsinin səbəblərinə aydınlıq gətirilmişdir.

Türkiyə Cümhuriyyəti tarixçiləri arasında Cəlalilər üsyanın başlanmasının səbəblərinə münasibət fərqlidir. M.İlgürel "Cəlalilər" adlı məqaləsində "Osmanlı imperiyasından narazı olan türkman dəstələrinin, Səfəvilərin təhriki ilə dövlətə qarşı çıxmasını" üsyanın başlanmasının səbəbi kimi qeyd edilir.[1] Onun fikrincə, bu üsyanın ilkin əlamətləri hələ II Bayəzid dövründə I Şah İsmayılın təbliğat apardığı Hamid və Təkə bölgələrində aşkara çıxmışdı. Şeyx Cəlal "Mehdilik" iddiası ilə Toqat ətrafında üsyan qaldırdıqdan sonra üsyançılar Cəlalilər adlanmağa başladılar.[2]

XVI əsrin sonlarında baş vermiş üsyanlar içərisində Qara Yazıcı üsyanı xüsusilə seçilirdi. 1597-1599-cu illərdə Osmanlı nizami qoşununu məğlub edən Qara Yazıcı Sivasda və Kayseridə möhkəmlənə bilmişdi. Qara Yazıcı sadə əsilli olmuş, müəyyən vaxt tələbə kimi təhsil almışdır. Sosial mənşəyindən asılı olmayaraq Cəlali rəislərinin çoxu süvari əsgərlər idisə,[3] Qara Yazıcı onlardan biri deyildi. 1602-ci ilin yazında Osmanlı

---

[1] İlgürel M. Celali isyanları //Diyanet İslam Ansiklopedisi, c. XXII. İstanbul: 2001, s. 252.
[2] İlgürel M. Celali isyanları, s. 252.
[3] Erdoğan M.K. Karayazıcı isyanı //Osmanqazi Üniversitesi Sosial Bilimler Dergisi, cilt 4, sayı 2. Aralık 2003, s. 57.

nizami ordusu tərəfindən sıxışdırılan Qara Yazıcı Canik dağlarına sığınsa da az sonra öldürüldü.

Qara Yazıcının ölümü ilə "Cəlali fitrəti" başa çatmadı, çünki "Qara Yazıcı cəhənnəm yolunu tutunca onun yerinə qardaşı Dəli Həsən keçdi".[1] 1603-cü ildə Osmanlı sultanı Dəli Həsənin üsyanını yatıraraq onu əfv etdi.

XVI əsrin sonu – XVII əsrin əvvəllərində Osmanlı imperiyasının şərq vilayətlərində baş verən Cəlali üsyanları mərkəzi hakimiyyəti çıxılmaz vəziyyətə saldı. Osmanlı sultanları bir tərəfdən Habsburqlara, digər tərəfdən də Azərbaycan Səfəvi dövlətinə qarşı müharibə apardığı üçün bu üsyanları yatırmaq üçün böyük çətinliklərlə üzləşdi. Osmanlı nizami ordusu ilə döyüşdə məğlub olan Cəlali rəhbərləri nicat yolunu Azərbaycana sığınmaqda tapdılar.

Birinci fəslin ***"XVI əsrin sonlarında Osmanlı imperiyasında iqtisadi və hərbi-siyasi vəziyyət"*** adlı ikinci paraqrafda XVI əsrin sonlarında Osmanlı imperiyasında hərbi-siyasi vəziyyət təhlil edilmiş və Cəlalili üsyanlarını doğuran səbəblərə aydınlıq gətirilmişdir.

XVI əsrin sonlarında Osmanlı imperiyasının iqtisadi həyatında baş verən hadisələr, xüsusən də infilyasiyanın artmasının xalqın vəziyyətini ağırlaşdırması, pulun dəyərdən düşməsi, bazarlarda qiymətlərin artması, vəzifələri pulla satın alan məmurların əhali üzərinə vergiləri artırması əhalinin narazılığına yol açmışdı.[2] XVI əsrin son rübündə Osmanlı-Səfəvi müharibəsi xalqın vəziyyətini xeyli ağırlaşdırmış, feodal özbaşınalığına yol açmışdır. Bu, öz növbəsində soyğunçuluqla, qarətlə məşğul olan qrupların meydana çıxmasına şərait yaratmışdı.

Hüseyn Hüsaməddin Osmanlı cəmiyyətində ictimai-iqtisadi vəziyyəti təhlil edərək belə nəticəyə gəlir ki, Cəlalilər hərəkatı "türklərin baş verən özbaşınalığa qarşı bir mübarizəsi olmuşdur".[3]

XVI əsrin son rübündə hökumətin "qiyamçıları" aman verilmədən edam etdirməsi, silahların rəiyyətdən toplanması, hər kəndə sipahilərə yardım etmək məqsədi ilə asayiş qoruyucularının göndərilməsi ölkədə sosial-siyasi vəziyyəti daha da gərginləşdirdi. Bu zaman tələbələrin yaxın qohumlarının üsyanlara qoşulması üçün əlverişli zəmin yaranırdı. Dağlarda və ucqar yerlərdə tələbələrlə yanaşı, yeni üsyançı dəstələri artmağa başladı.

---

[1] Peçevi İbrahim Efendi Peçevi tarihi. ç.II. Hazırlayan dr. Bekir Sıtkı Baykal. Ankara: 1992, s. 238.

[2] Hammer J.V. Osmanlı tarihi. c.I. Çeviren Mehmet Ata. İstanbul: 1990, s. 253.

[3] Amasiyalı Abdi zade Hüseyn Hüsameddin. Amasiya tarihi. c. III, İstanbul: 1928, s. 328-329.

M.Akdağın fikrincə, Koroğlunun başçılığı ilə ilk Cəlali dəstə başçıları məhz bu şəraitdə ortaya çıxmağa başladı.[1]

Birinci fəslin ***"XVI əsrin sonu – XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətində hərbi-siyasi vəziyyət"*** adlı üçüncü paraqrafında XVI əsrin sonu-XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətində hərbi-siyasi vəziyyət təhlil edilmiş, Azərbaycanda Cəlalilər hərəkatının yayılmasının səbəblərinə aydınlıq gətirilmişdir. Məlum olduğu kimi, XVI əsrin sonlarında Osmanlı-Səfəvi müharibəsinin başa çatması və tərəflər arasında İstanbul sülhünün bağlanmasından istifadə edən I Şah Abbasın həyata keçirdiyi iqtisadi və hərbi-inzibati islahatlar mərkəzi hakimiyyətin möhkəmlənməsini təmin etdi.

I Şah Abbasın islahatları nəticəsində Azərbaycan Səfəvi dövləti nəinki əvvəlki qüdrətini bərpa etdi, hətta daha da gücləndi. Qızılbaş əyanlarının özbaşınalığına son qoyulması, yerlərdə ayrı-ayrı "sülalə hakimlərinin" aradan qaldırılması nəticəsində mərkəzi hakimiyyət möhkəmləndirildi və tam siyasi sabitlik bərqərar oldu. Dövlətin əsas dayağı olan daimi nizami ordu yaradıldı, dövlətin müdafiə qabiliyyəti gücləndirildi.[2]

Bu dövrdə Azərbaycan torpaqlarının osmanlılardan azad olunması Azərbaycan Səfəvi hökmdarının qarşısına qoyduğu başlıca vəzifələrdən biri idi. İsgəndər bəy Münşinin fikrincə, I Şah Abbas Azərbaycanın Osmanlı sultanının əlinə keçməsi ilə razılaşmayaraq onun tezliklə geri alınmasını istəyirdi".[3]

Dissertasiyanın "**Cəlalilər hərəkatı və Azərbaycan**" adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. ***"XVI əsrin sonlarında Cəlalilər hərəkatının genişlənməsi və Azərbaycana yayılması"*** adlanan birinci yarımfəsildə XVI əsrin sonlarında Şərqi Anadoluda Cəlalilər hərəkatının daha da güclənməsi və onun Azərbaycanın qərb vilayətlərinə yayılması, 1603-cü ildə I Şah Abbasın Osmanlılara qarşı hərbi əməliyyatlara başlaması ilə hərəkatın geniş vüsət alması və onun Səfəvi şahı tərəfindən himayə olunması, Cəlali dəstələridən Osmanlılara və itaətsizlik göstərən ayrı-ayrı vilayət hakimlərinə qarşı istifadə olunması məsələləri dövrün qaynaqlarından istifadə edilməklə təhlil edilmişdir.

---

[1] Akdağ M. Türk halkının dirilik ve düzenlik kavqası, s. 265.
[2] Bax: Bayramov Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU nəşriyyatı, 2006, s. 31-33.
[3] İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab. Fars dilindən tərcümə t.e.d., prof. Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2014, s. 1059.

İsgəndər bəy Münşi Osmanlı-Səfəvi müharibələrinin növbəti mərhələsi (1603-1607) ərəfəsində Səfəvi dövləti ilə həmsərhəd olan Osmanlı ərazisində Cəlalilər hərəkatının genişlənməsini I Şah Abbasın Azərbaycanı,
Cənubi Qafqazı azad etmək məqsədilə hərbi yürüşə çıxmaq qərarı ilə əlaqələndirir.[1]

XVII əsrin əvvəllərində Səfəvi ordusunun uğurlu hərbi əməliyyatları bir-birinin ardınca Azərbaycanın itirilmiş ərazilərinin azad edilməsinə gətirib çıxardı. Məhz bu dövrdə Azərbaycanın İrəvan bölgəsində Kənəkirli Məhəmmədin rəhbərliyi altında Cəlali dəstəsinin fəaliyyət göstərdiyini dövrün qaynaqları təsdiq edir.[2]

İsgəndər bəy Münşinin məlumatına görə, 1607-ci ildə Osmanlı ordusu Murad paşanın rəhbərliyi altında Anadolu cəlalilərinə qarşı mübarizəyə başladı. Nizami Osmanlı ordusu ilə döyüşdə ciddi itki verən Cəlali dəstələri Qələndəroğlu Məhəmməd paşanın rəhbərliyi altında Ərzruma, sonra isə İravana çəkilmək məcburiyyətində qaldı.[3] İsgəndər bəy Münşinin verdiyi məlumat Cəlalilərin I Şah Abbas tərəfindən himayə olunduğunu təsdiq edir.[4]

I Şah Abbas Cəlalilərin qüvvəsindən itaətdən boyun qaçıran kürd əmirlərinə və Osmanlılara qarşı müharibədə istifadə etmək niyyətində idi. Şah sarayının planlarına əsasən Cəlalilər Həsən Ustaclı başda olmaqla Səfəvi qoşunları ilə birləşərək Marağadan hərbi yürüşə başlayıb "Kürdüstanı" ələ keçirməli və osmanlıların nəzarətində olan ərazilərə daxil olaraq Diyarbəkri tutmalı idilər.[5]

Cəlalilər hərəkatına başçılıq edən rəhbərlər arasında Koroğlu xüsusilə seçilirdi. Koroğlu şəxsiyyəti və onunla əlaqədar hadisələr Azərbaycan folklorunda özünün geniş əksini tapmışdır. Tarixi ədəbiyyatda Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən P.N.Boratav olmuşdur.[6]

---

[1] İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1160; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке, с. 53; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 187.
[2] Даврижеци Аракел. Книга историй. Перевод с армянского, словие и комментарии Л. А. Ханларян. Москва: 1973, с. 95.
[3] Bax: İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. II kitab, s. 1386-1388.
[4] Yenə orada, s. 1389.
[5] Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке, с. 58.
[6] Bax: Boratav P.N. Kör Oğlunun tarihi şahsiyeti, s. 124-129.

Sovet tarixşünaslığında Koroğlunun tarixi şəxsiyyət olduğu ilk dəfə İ.P.Petruşevski tərəfindən qeyd edilmişdir.[1] Arakel Təbrizli Koroğlu barədə yazır ki, "bu o Koroğludur ki, hazırda aşıqlar tərəfindən oxunan çoxlu nəğmələr bəstələmişdir".[2] Yadelli işğalçılara, feodal zülmünə qarşı barışmaz mövqeyi və mübarizliyi xalq kütlələrində Koroğluya sonsuz hörmət və sevgi qazandırmışdı. Real tarixi şəxsiyyət olan Koroğlu ədalətli xalq müdriki, yenilməz qəhrəman, mahir aşıq kimi xalqın sevimlisinə çevrilmişdi. F.Sümerin fikrincə, Osmanlı ordusu Səfəvilərlə müharibəyə cəlb olunduğu üçün Koroğlunun fəaliyyəti üçün geniş imkanlar açılmışdı. Lakin o, müxtəlif istiqamətdən sıxışdırıldığı üçün fəaliyyət göstərdiyi bölgəni tərk etmək məcburiyyətində qalmışdı.[3]

Koroğlu Çənlibeldə də sıxışdırıldığı zaman Azərbaycana gedərək I Şah Abbasın xidmətinə girmişdi.[4] Bunu dövrün mənbələri də təsdiq edir. I Şah Abbasın saray münəccimi Cəlalədin Münəccim Yəzdi "Tarix-i Abbasi" əsərində yazır: "Bu xanədanın çörəyi və duzu ilə özünün və atalarının sümüklərini bəsləmiş olan Sədlu tayfa başçısı Əliqulu bəy nankorluq edərək Osmanlıların xidmətinə girərək çaşnigir (süfrəçibaşı) vəzifəsini əldə etmişdi. Koroğlu Pasin ətrafında onu, oğlunu və anasını tutub şahın hüzuruna göndərmişdi".[5] Bu bir daha sübut edir ki, Koroğlu Səfəvi şahının xidmətində olmuşdur. F.Sümerin fikrincə, çətinliklərə çarə tapması, təhlükələrdən xilas olması Koroğlunun dastan qəhrəmanı olmasında mühüm rol oynamışdır. Koroğlunun ağıllı olduğu qədər mərd ruhlu bir insan olduğunu, silahdaşlarına qarşı şəfqətli hərəkət etdiyini söyləmək olar.[6] Həm igid döyüşçü, mahir sərkərdə, həm də istedadlı aşıq olan Koroğlu şəxsi xoşbəxtlik deyil, xalq səadəti uğrunda mübarizə apardığı üçün xalqın yaddaşında dastan qəhrəmanına çevrilmişdir.

İkinci fəslin ***"Cəlalilər hərəkatının "Koroğlu" dastanında əksi"*** adlı ikinci yarımfəslində Cəlalilər hərəkatının və o cümlədən real tarixi

---

[1] Петрушевский И.П.Очерки по истории феодальных отношений в Азербайджане и Армении, с.326.

[2] Даврижеци Аракел. Книга историй, с. 94; Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке, с. 61; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 191.

[3] Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s. 17.

[4] Yenə orada, s.18,19-20.

[5] Molla Cəlaləddin Münəccim Yəzdi. Tarix-i Abbasi, s.256; Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s.46; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 192.

[6] Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s. 21.

şəxsiyyət olan Koroğlunun "Koroğlu" dastanının ayrı-ayrı qollarında işıqlandırılması təhlil edilmişdir.

Tədqiqatçıların qənaətinə görə, həmin dövrdə Azərbaycan ərazisində fəaliyyət göstərmiş Cəlali dəstə başçıları arasında ən məşhuru Koroğlu olmuşdur. Sonralar o, eyni adlı dastanın baş qəhrəmanına çevrilmişdir.[1] Cəlalilərlə Osmanlı qoşunları arasında ən böyük döyüş 1608-ci ildə Ərzrumda olmuşdur. Dastanın da qollarından birinin adı "Ərzrum səfəri"dir və biz dastanın əksər variantlarında bu qolla rastlaşırıq.[2] Dövrün qaynağının təsdiq etdiyi kimi, Koroğlu Ərzrumda qanlı döyüşə başlayır. Dastan variantlarının əksəriyyətində "Bağdad səfəri" qolu diqqəti cəlb edir.[3] "Koroğlu" dastanının variantlarında Dərbəndin adı çəkilir və burada "Dağıstan səfəri" xüsusi yer tutur.[4] A.Təbrizlinin məlumatına görə, Cəlalilər hərəkatı Dəmir-qapıya (Dərbəndə) qədərki ərazini əhatə etmişdir.[5] Maraqlıdır ki, Dərbənddəki qalalardan biri də "Koroğlu qalası" adlanır.[6]

Dastanda Koroğlunun "Cəlali Koroğlu" adlandırılması qəhrəmanın XVI-XVII əsrlərdə baş vermiş "Cəlalilər hərəkatının" rəhbərlərindən biri olması haqqında müddəaları irəli sürmək üçün imkanlar yaradır. Maraqlıdır ki, tədqiqatçıların əksəriyyəti dastanın bütün variantları arasında Azərbaycan versiyasının daha dolğun olması ilə razılaşır.[7]

Koroğlu bütün zamanlarda xalqın ən çətin, ən ağır məqamında gözlədiyi qurtarıcılıq missiyasının daşıyıcısı olmuş, milli oyanışı, zülmə dirənməyi, ədaləti qorumağı, əzilənlərin yanında olmağı özünə vəzifə bilmişdir.[8] "Koroğlu" dastanı hal-hazırda 13 xalq arasında yayılmışdır. Çoxsaylı variantlar, müstəqil qollar, hekayətlər, məclislər, habelə nəğmələr şəklində yaranıb təşəkkül tapmış bu folklor incisi əsasən iki şəkildə - bəzi xalqlar arasında tamamilə nəzm, bəzilərində isə nəzmlə nəsrin qarşılaşması

---

[1] Bax: Akdağ M. Türk halkının dirilik ve düzenlik kavqası, s. 265; Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s.17-20; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 190-192; İsmayılova E. Koroğlunun dövrü, şəxsiyyəti haqqında //Journal of Azerbaijani Studes, Volume 2. Khazar University Press, s. 426-443.

[2] Koroğlu. M.H.Təhmasibin redaktəsi ilə. Bakı: Gənclik, 1974, s.50; Koroğlu. Azərbaycan xalq ədəbiyyatı. Bakı: Lider nəşriyyatı, 2005, s.50.

[3] İsrafil A. Azərbaycan qəhrəmanlıq eposu, Baki: Kitab aləmi, 2010, s. 440.

[4] Koroğlu. M.H.Təhmasibin redaktəsi ilə, s. 264; Koroğlu. Azərbaycan xalq ədəbiyyatı, s. 316.

[5] Даврижеци Аракел. Книга историй, с. 95.

[6] Bayramlı C. Dastan ədəbiyyatımıza kənar təsirlər. Bakı: Kitab aləmi, 2010, s. 165.

[7] Koroğlu (1842-ci il London nəşrinin tərcüməsi). Bakı, Çıraq, 2014, s. 20.

[8] Koroğlu (1842-ci il London nəşrinin tərcüməsi), s. 4.

şəklində yayılmışdır.[1] P.N.Boratav həmin versiyaları araşdırıb birmənalı qənaətə gəlmişdir ki, bütün bu variantların əsasını Azərbaycan eposu təşkil edir və hadisələrin baş verdiyi yer bilavasitə Azərbaycandır.[2]

Azərbaycan tarixinin dərin qatlarını öyrənmək üçün "Koroğlu" eposunun A.Xodzko variantı çox böyük əhəmiyyət kəsb edir. Eposun ikinci məclisində Koroğlunun İrəvan hakimi Hüseynəli xan Qacarla məktublaşması, tərəflər arasında yaranmış münasibət dövrün qaynağı olan İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində Cəlali rəhbərlərinin Osmanlı ordusu tərəfindən Şərqi Anadoluda sıxışdırılmasından sonra onların əksəriyyətinin məhz İrəvan bölgəsinə üz tutması və İrəvan hakiminin vasitəçiliyi ilə I Şah Abbasla görüşə nail olunması barədə verdiyi məlumatlarla üst-üstə düşür.[3] Bu, dastanda Koroğlu və silahdaşları barədə verilən məlumatların tarixi gerçəklikləri düzgün əks etdirdiyini bir daha təsdiq edir.

"Koroğlu" dastanın Azərbaycan versiyasının Paris nüsxəsində Koroğlunun aqibəti haqqında belə bir məlumat var ki, Azərbaycan Səfəvi hökmdarı I Şah Abbas Koroğlunun igidliyini duyub ondan "öz sərkərdələri arasında yer tutmasını" istəmişdir.[4] Lakin Koroğlu qəlbində "şahlar insan dəyərini bilməzlər" deyərək şahın təklifini qəbul etməmişdi. Səfəvi hökmdarı bu təklifinin mənfi qarşılanmasından qəzəblənərək "Koroğlunun başını gətirənə sərdarlıq verəcəyini" elan etmişdi. I Şah Abbasın bu qərarından xəbərdar olmayan Koroğlu, həmin məqamda qocaldığını anlamış, buna görə də şaha sayğısını ərz etdikdən sonra oradan Məkkəyə getməyi qərara almış, yoldaşlarını çağırıb bu qərarını onlara bildirmiş və Eyvazı özünün yerinə xələf qoymuşdur. Şahın yanına yollanan Koroğlu Almas xan və Bəhram xanın hücumuna məruz qalaraq öldürülmüş və onun kəsilmiş başı I Şah Abbasa gətirilmişdir. I Şah Abbas qəhrəmanın başına baxarkən ətəyinə bir damla qan düşmüş və şah "bu məsum qandır, siz onu igidcəsinə öldürmədiniz" demiş, Cənlibeldən gətirdiyi üç igidin sözlərindən gerçəyi anlamışdır. Dəlilər və onu sevənlər Koroğlunun bu həzin ölümünə ağlamışdılar. Şah həmin kölələri İsfahan əhalisinə parçalatmış və Eyvazın Çənlibeldəki hakimiyyətini təsdiq etmişdir.[5]

---

[1] Koroğlu. M.H.Təhmasibin redaktəsi ilə, s. 58.

[2] Boratav P.N. Köroğlu destanı. Türkiyat Enstitüsü Yayınlarından, İstanbul: 1931, s. 13.

[3] Koroğlu (1842-ci il London nəşrinin tərcüməsi), s. 75-76.

[4] Koroğlu (Paris nüsxəsi). Bakı: Şərq-Qərb, 2005, s.210.

[5] Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar, s.16-17; Nəcəfli T.H. Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 192.

“Koroğlu” eposunun A.Xodzko nəşrində Koroğlunun öldürülməsinə həsr edilmiş on üçüncü məclisdə Koroğlunun öldürüldüyü şəhərin adı da verilmişdir. Şah Abbasın buyruğunu yerinə yetirmək üçün İsfahana yollanan Koroğlu Kaşan şəhəri ilə İsfahan arasındakı kiçik Kurud şəhərində öldürülmüşdü.[1]

Ümumiyyətlə, “Koroğlu”dastanında və yazılı qaynaqlarda elə məqamlar var ki, onlar problemin müqayisəli öyrənilməsinin davam etdirilməsini zəruri edir.

Cəlalilər hərəkatının iştirakçılarının Koroğlu eposunda müəyyən mənada öz əksini tapmasını tarixi tədqiqatlar təsdiq edir. F.Namazova Koroğlu eposunu Cəlalilər hərəkatına yaxınlaşdıran siyasi və sosial bağlılıqlara toxunaraq yazır ki, siyasi bağlılıq XVI-XVII əsrin qovşağında Səfəvi və Osmanlı dövlətləri arasındakı mübarizə dövrünə uyğun gəlməsi; sosial bağlılıq, yəni dastanın süjetini təşkil edən ədalət prinsipi, ideallar uğrunda mübarizə dövrün ictimai hadisələrinin məzmunu kimi zülmə qarşı çevrilmişdir.[2]

Koroğlu dastanı Cəlalilər hərəkatını öyrnmək baxımından mühüm mənbədir. Koroğlu dastanını Cəlalilər hərəkatı ilə bağlamaq cəhdi bir çox tədqiqatçıların əsərlərində üstünlük təşkil edir. Füzuli Bayat öz əsərində Koroğlu dastanını tarixi-coğrafi araşdırma yolu ilə Cəlalilər üsyanına, xüsusən də Cəlalilərin Təbriz üsyanına bağlayır. O, yazır: “Gerçəkdən də Anadolu və Azərbaycan variantlarında Koroğlunun tarixi şəxsiyyəti aydın şəkildə görünməkdədir. Cəlali Koroğlusu ilə mifoloji Koroğlu dastanda birləşərək yeni epik qəhrəman tipini formalaşdırmışdır”.[3]

Koroğlu dastanının təhlili belə nəticəyə gəlməyə imkan verir ki, Cəlalilər hərəkatı məğlub olsa da, bu hərəkatı öz bətnində yaşadan dastanda Cəlalilər Koroğluya sadiqdirlər. Çünki Koroğlu hərəkatında xalq kütlələrinin mənafeyi müdafiə olunur. Geniş mənada Cəlalilər hərəkatında isə şəxsi mənafelər ictimai mənafeni üstələdiyi üçün hərəkat daxilində müəyyən mənəm-mənəmliyə, ayrı-seçkiliyə, Cəlali dəstələri arasında nifaqa, hətta qarşıdurmaya səbəb olur.

Koroğlunun əfsanəvi qəhrəman kimi məşhurlaşmasının əsas səbəbi onun yadellilərin təzyiqinə, feodalların, varlı tacirlərin, sələmçilərin istis-

---

[1] Koroğlu (1842-ci il London nəşrinin tərcüməsi), 341.
[2] Namazova F.Q Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu, s. 77.
[3] Bayat F. Köroğlu. Şamandan aşığa, alpdan erene. Ankara: Sayfa Düzeni/Akçay Dizgi Ünitesi, 2003, s.10.

marına qarşı barışmaz mübarizə aparan xalq kütlələrinin hədsiz məhəbbətini, rəğbətini qazanması idi.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində əldə olunmuş əsas elmi-nəzəri qənaətlər sistemləşdirilərək ümumiləşdirilir və praktik tövsiyələr verilir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Qara Yazıcı üsyanı ərəfəsində Osmanlı-Səfəvi siyasi münasibətlər //AMEA Tarix İnstitutu Elmi Əsərlər, Bakı: 2012, s. 255-258.

2. Osmanlı imperiyasında Cəlalilər hərakatının başlanma səbəbləri // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları. Bakı: 2015, s. 327-329.

3. Cəlalilər hərəkatı haqqında bəzi qeydlər: Hərəkatın başlanması səbəbi və nəticələri //Azərbaycanşünaslığın aktual problemləri və beynəlxalq elmi konfransın materialları 5-7 may 2015. Bakı: 2015, s. 388-391 (Həmmüəllif Fərzəliyev Ş. F).

4. Cəlalilər hərakatı ərəfəsində Osmanli imperiyasının sosial-iqtisadi vəziyyəti // Gənc alimlərin əsərləri, №11. Bakı: 2015, s. 226-231.

5. XVI əsrin sonunda Osmanlı imperiyasının və Səfəvilər dövlətinin siyasi vəziyyəti // Azərbaycan xalqınıin Ümummilli lideri Heydər Əliyevin anadan olmasinin 92-ci ildönümünə həsr olunmiş tələbə və gənc tədqiqatçıiların "Gənclər və yeni texnologiyalar" mövzusunda Respublika elmi-texniki konfransın materialları. Bakı: 2015, s. 481-484.

6. Qara Yazıcı üsyanı və "Cəlali fitrəti" başalanma səbəbləri türk mənbələrində //AMEA-nın 70 illiyinə həsr olunan gənc alim və mütəxəssislərin "Akademik elm həftəliyi – 2015" adlı Beynəlxalq multidissiplinar Forumu. Bakı: 2015, s. 76-78.

7. Osmanlı dövlətində "Qara Yazıcı" üsyanının başlanması //Gənc alimlərin əsərləri, №12. Bakı: 2015, s.144-150

8. Социально-экономическое положение Османской империи накануне движения джелалиев //The Caucasus and the world International scientific journal, №21. Tbilisi: 2016, c. 150-154.

9. Azərbaycan Səfəvi-Osmanlı qarşıdurması dövründə //Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi. Elmi Əsərlər Məcmuəsi. Bakı: 2016, s. 28-34.

10.Cəlalilər hərakatı ərəfəsində Osmanlı imperiyasının sosial-iqtisadi vəziyyəti // Qafqaz Universiteti Gənc tədqiqatçıların IV Beynəlxalq elmi Konfransı. Bakı: 2016, s. 1711.

**А.Кербалаева**

# ДВИЖЕНИЕ ДЖЕЛАЛИ И АЗЕРБАЙДЖАН (КОНЕЦ XVI– НАЧАЛО XVII ВВ.)

## РЕЗЮМЕ

Диссертация посвящена движению Джелали, которое произошло в конце XVI века – в период общественно-экономических и политических сотрясений, которых породили Сефевидо-Османские войны и деятельности этого движения на территории Азербайджана. Хронологические рамки исследовательской работы охватывают конец XVI–начало XVII вв.

Диссертационное исследование состоит из введения, двух глав, заключения и списка использованной литературы и источника.

**Во введении** обосновываются актуальность и значимость темы, освещается и комментируется степень изученности проблемы, определяются объект, цели и задачи исследования, характеризуются его научная новизна, методологическая и теоретическая основа, а также указывается практическое значение исследования.

**В первой главе**, названной «Историческое условие породившее движение Джелали» подробно исследуется причины возникновения движения Джелали и его распространение в Восточной Анатолии, а также представлена информация о руководителях движения.

**Во второй главе** диссертации, которая называется «Движение Джелали и Азербайджан» освещаются причины распространения этого движения в Азербайджане, на основе материала почерпнутого из источников данного периода проанализирован вопрос опекунства движения шахом Аббасом I. Здесь, также представлена ценная информация о руководителях движения, которые действовали в Азербайджане, освещается деятельность Короглу. Главной причиной превращения Короглу в известного мифического героя была симпатия и любовь народной массы, которая вела непримиримою войну против давления иноземцев и эксплуатации феодалов, богатых торговцев и ростовщиков.

**В заключении** подводятся итоги всему исследованию и делаются соответствующие выводы.

**A.Karbalayeva**

## JALALI MOVEMENT AND AZERBAIJAN (AT THE END OF THE XVI - BEGINNING OF THE XVII CENTURIES)

### SUMMARY

The dissertation is dedicated of the Jalali movement and its activity in Azerbaijan during the socio-economic and political upheaval of the Safavid-Ottoman wars at the end of the XVI century. The chronological framework of the study covers the end of the XVI and XVII centuries. The dissertation consists of introduction, two chapters, five paragraphs, a conclusion and a list of used sources and literature.

**In introduction section** of the dissertation is explained: the relevance of the subject is justified, the chronological framework of the study, the level of learning and the source database, the goals and objectives of the research, scientific justification, theoretical-methodological basis, practical significance, as well as information about the dissertation and structure of dissertation.

**In the first chapter** of the dissertation entitled "History of the Jalali movement", the causes of the beginning of the Jalali movement, the wide dissemination in Eastern Anatolia are studied in detail, and given detail information is about individual rebel leaders.

**In the second chapter** of the dissertation, "The Jalali movement and Azerbaijan", Explain the reasons for the spread of the movement in Azerbaijan, and patronized by Shah Abbas I of that movement is analyzed on the basis of the contemporary sources. It also provides important information about the leaders of the Jalali movement in Azerbaijan and clarifies the activities of Koroglu. The main reason why Koroglu was so famous as a legendary hero was his overwhelming sympathy which he was gain for uncompromising struggle against foreign pressure, feudal lords, wealthy merchants and etc.

**In the conclusion part** of the dissertation the main scientific-theoretical gains obtained during the research are systematized and practical recommendations are systematized.

Əla növ kağız, formatı 60x84 - 1/16
Tirajı 100 nüsxə
TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**АМАНА ЭЛЬДАР кызы КЕРБАЛАЕВА**

# ДВИЖЕНИЕ ДЖЕЛАЛИ И АЗЕРБАЙДЖАН (КОНЕЦ XVI – НАЧАЛО XVII ВВ.)

**Специальность 5503.02– Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ- 2017**